29 جمادى الأولى 1446
01/12/2024

# أنا مسلم

# Mən müsəlmanam

# Mən müsəlmanam

Doktor Muhammməd bin İbrahim Əl-Həmədin qələmiylə.

Mən müsəlmanam və bu o deməkdir ki, mənim dinim İslamdır. İslam birincisindən sonuncusuna qədər peyğəmbərlərin miras buraxdığı böyük və müqəddəs bir kəlimədir və bu kəlimə özündə yüksək mənalar və böyük dəyərlər daşıyır. İslam yaradana təslim olmaq, ona itaət etmək və boyun əymək deməkdir. Həmçinin fərd və cəmiyyət üçün salamatlıq, sülh, xoşbəxtlik, əmin-amanlıq və rahatlıq deməkdir.

Və buna görə də sələm (sülh) və İslam sözləri İslam şəriətində ən çox istifadə olunan sözlərdir ; Əs-Sələm Allahın adlarından bir addır və müsəlmanların öz aralarında salamlaşması məhz "əs-sələm" sözü ilədir. Cənnət əhlinin salamlaşması da (sələm)dir, və həqiqi müsəlman o kəsdir ki, digər müsəlmanlar onun dilindən və əlindən salamatdırlar; İslam, bütün insanlar üçün xeyir dinidir, onların hamısını əhatə edir və o dünya və axirətdə onların səadət yoludur. Buna görə də o, hər kəsə açıq, dinlərin sonuncusu, əhatəli, geniş və aydın olaraq gəlmişdir. O, bir irqi digərindən, bir dəri rəngini digərindən fərqləndirmir. Əksinə insanlara bir baxışla baxır . İslamda insanlar yalnız onun təlimlərini yerinə yetirmək dərəcəsinə görə seçilirlər.

Hər bir normal kəs onu qəbul edir; çünki o fitrətə uyğundur ; Hər bir insan xeyirxahlığı, ədaləti, azadlığı qəbul edən, Rəbbini sevən, Onun ibadətə layiq tək məbud olduğunu qəbul edən fitrət üzərində doğulur. Heç bir kəs bu fitrətdən onu dəyişən səbəb olmadıqca kənara çıxmır. Bu dini insanların xaliqi, rəbbi və ilahı olan Allah onlar üçün razı qalmış və bəyənmişdir.

Dinim İslam mənə bu dünyada yaşayacağamı və ölümümdən sonra da başqa bir yurda, əbədiyyət yurduna gedəcəyəmi öyrədir. Və o əbədiyyət yurdu elə bir yerdir ki, insanlar orada ya cənnətə ya da cəhənnəmə gedəcəklər.

Dinim İslam mənə bəzi şeyləri əmr edir və bəzi qadağalardan da çəkindirir. Belə ki əgər bu əmrləri yerinə yetirsəm və o qadağalardan da çəkinsəm, dünya və axirətdə xoşbəxt olaram. Əgər bunlarda səhlənkarlıq etsəm, səhlənkarlığım və laqeydliyim qədərində dünya və axirətdə bədbəxt olaram.

İslamın mənə əmr etdiyi ən böyük şey Allahı təkləşdirməkdir. Mən də şəhadət verirəm və qəti şəkildə inanıram ki, Allah mənim yaradanım və (ibadət etdiyim) məbudumdur. Mən Allahı sevdiyimdən, əzabından

qorxduğumdan, mükafatını umduğumdan və Ona təvəkkül etdiyimdən dolayı yalnız Ona ibadət edirəm. Bu tövhid kəliməsi Uca Allahın birliyinə və peyğəmbəri Muhəmmədin-salləllahu aleyhi va səlləm-risalətinə şahidlik etməyi əhatə edir. Muhəmməd peyğəmbərlərin sonuncusudur, Allah onu aləmlərə rəhmət olaraq göndərmiş və onunla peyğəmbərliyə və risalətlərə son qoymuşdur. Ondan sonra heç bir peyğəmbər olmayacaq. O, artıq hər bir zaman, məkan və millət üçün uyğun olan ümumi bir dinlə gəlmişdir.

Mənim dinim mənə qəti surətdə əmr edir ki, mələklərə və başda Nuh, İbrahim, Musa, İsa və Muhəmməd -onlara salam olsun- olmaqla bütün elçilərə iman gətirim.

O, mənə peyğəmbərlərə nazil olan səmavi kitablara iman gətirməyi və onların sonuncusu, yekunu və ən əzəmətlisi olan (Qurani-Kərimə) tabe olmağı da əmr edir.

Dinim mənə insanların əməllərinə görə mükafatlanacağı Qiyamət gününə iman etməyi də əmr edir. Həmçinin mənə qədərə iman gətirməyi, bu həyatda başıma gələn xeyir və şərdən razı qalmağı və qurtuluş səbəblərindən yapışmağı əmr edir.

Qədərə iman gətirmək mənə rahatlıq, arxayınlıq və səbr verir və keçmişdə əldə edə bilmədiyim şeylərə görə peşmançılıq çəkməməyi öyrədir. Çünki yəqinliklə bilirəm ki, başıma gələn şey məndən uzaqlaşa bilməzdi və məndən uzaq olan şey isə başıma gələ bilməzdi. Hər şey Allah tərəfindən yazılıb və təqdir edilmişdir. Və mənim üzərimə düşən yalnız səbəblərdən yapışmaq və ondan sonra baş verənlərə razı qalmaqdır.

İslam dini mənə ruhumu təmizləyən xeyirxah əməlləri, Rəbbimi razı salan ,nəfsimi təmizləyən,qəlbimi sevindirən, sinəmi genişlədən, yolumu işıqlandıran və məni cəmiyyətə faydalı bir insana çevirən böyük əxlaqı əmr edir.

Bu əməllərin ən böyüyü: Allahı təkləşdirmək, gündəlik beş vaxt namazı qılmaq, malın zəkatını vermək, ilin bir ayında - Ramazan ayında- oruc tutmaq və gücü çatana Məkkədə Beytulhəramı həcc etməkdir.

Dinimin məni yönəltdiyi, sinəmi genişlədən ən böyük xüsuslardan biri də sözlərin ən doğrusu, ən gözəli və əzəmətlisi olan, əvvəlkilərin və sonrakıların elmlərini özündə ehtiva edən Uca Allahın kəlamı Quranı çox oxumaqdır. Onu oxumaq və ya dinləmək qəlbə sükunət, rahatlıq və xoşbəxtlik gətirir. Hətta onu oxuyan və ya dinləyən ərəb dilini yaxşı bilməsə və ya müsəlman olmasa da bu belədir .

Köksü açan ən böyük əməllərdən biri də Allaha çoxlu dua etmək, Ona yönəlmək, hər böyük və kiçik ehtiyacı Ondan istəməkdir. Allah Ona dua edən və Ona ixlasla ibadət edənlərə cavab verir.

Köksü açan ən böyük əməl - izzət və cəlal sahibi olan Allahı çox zikr etməkdir.

Artıq Peyğəmbərim – salləllahu aleyhi və səlləm – mənə Allahı necə zikr edəcəyimi və bunun ən gözəl yolunu öyrətmişdir. Bunlardan: Qurandan sonra ən fəzilətli kəlam olan dörd kəlimə: Subhənallah, valhəmdulilləh, və ləə iləhə illəllah, vallahu əkbər(Allah pakdır, həmd Allaha məxsusdur, Allahdan başqa haqq ilah yoxdur və Allah ən böyükdür) kəlimələridir.

Həmçinin "əstəğfirullah, ləə həvlə və ləə quvvatə illə billəh (Allahdan bağışlanma diləyirəm və Allahdan başqa heç bir güc və qüvvət sahibi yoxdur).

Köksün açılmasına, qəlbin rahatlığına bu sözlərin, zikrlərin gözəl təsiri vardır.

İslam dini insanlığımı və ləyaqətimi alçaldan hər şeydən uzaq durmağımı, alicənab və şərəfli olmağımı əmr edir. Ağlımı və əzalarımı, onların yaradılış səbəbi olan dünya və axirətimdə faydalı olan əməlləri işləməkdə istifadə etməyimi əmr edir.

İslam dini mənə rəhimli olmağı, gözəl əxlaqı, xoş rəftarı, insanlara söz və əməllə bacardığım qədər xeyirxahlıq etməyi əmr edir.

Yaradılmışların haqları arasında mənə əmr edilən ən böyük haqq ata-ana haqqıdır. Dinim mənə onlara qarşı qayğıkeş olmağı, onlara xeyir etməkdə təşəbbüslü olmaq- xüsusilə qoca yaşlarında-onları sevindirməyə hərislik göstərməyi və onlara fayda verməyi əmr edir. Buna görə də İslam cəmiyyətlərində ata və anaya övladları tərəfindən yüksək qiymətləndirilmə, hörmət və xidmət göstərildiyini görürsən. Valideynlər yaşlandıqda, xəstələndikdə və ya zəiflədikdə övladların onlara xeyirxahlıqları daha da artar.

Dinim mənə qadınların yüksək dəyərlərə və böyük hüquqlara malik olduğunu öyrədir. İslamda qadınlar kişilərin yarısıdırlar(eyni dəyərə malikdirlər) və insanların ən xeyirlisi ailəsinə qarşı ən xeyirli olanıdır. Müsəlman qadın uşaqlıq vaxtlarında ana südü ilə qidalanmaq,

qulluq edilmək və gözəl tərbiyə almaq haqqına sahibdir. O, bu çağında ata-anası və qardaşlarının göz nuru və qəlb meyvəsidir.

Böyüdükdə isə o, himayədarının qısqandığı və qayğı ilə əhatə etdiyi, hörmətli və dəyərli birisi olur. Himayədarı heç kəsin ona pislik etməsinə, sözləri ilə onu incitməsinə və ya ona xain baxışlarla baxmasına razı olmaz .

Və evləndikdə bu, Allahın sözünə və Onun möhkəm əhdinə əsasən olur; O, ər evində ən dəyərli bir yoldaş olacaq. Ona hörmət və xeyirxahlıq etmək, onu əziyyətlərdən qorumaq onun ərinin üzərinə vacibdir.

Əgər anadırsa, ona yaxşılıq etmək Uca Allahın haqqı ilə, ona qarşı itaətsizlik və hörmətsizlik isə Uca Allaha şirk qoşmaq və yer üzündə fəsad törətməklə birlikdə qeyd edilir.

Əgər o, bacıdırsa, müsəlmana onunla əlaqə saxlamaq,ona hörmət etmək və onu qısqanıb qorumaq əmr edilmişdir. Əgər o qadın xaladırsa, xeyirxaqlıq və qohumluq əlaqəsi baxımından ana ilə eyni məqamdadır.

Əgər nənədirsə və ya yaşlıdırsa, onun dəyəri övladları, nəvələri, bütün qohumları arasında artır. Onun istəyi demək olar ki, heç vaxt rədd edilmir və fikri heç vaxt aşağılanmır.

Əgər qohumları və ya qonşuları yoxdursa, ona əziyyət verilməməsi, ona qarşı baxışların aşağı dikilməsi, pis gözlərlə baxılmaması və sair bu kimi ümumi İslam haqları vardır.

Müsəlman cəmiyyətləri hələ də qadınlara qeyri-müsəlman cəmiyyətlərində olmayan bir dəyər və diqqət qazandıran bu hüquqlara haqqı ilə riayət etməkdədir.

Həmçinin İslamda qadının mülkiyyət, icarə, satmaq, almaq və digər ticarət əqdlərini icra etmək hüququ vardır. Onun həmçinin dininə zidd olmayan şəkildə təhsil almaq, elm öyrətmək və işləmək hüququ da vardır. Əksinə, elə elmi məsələlər vardır ki, o fərdu ayndır(hər kəsə vacibdir). İstər kişi olsun, istərsə də qadın, o şeyləri öyrənməyi tərk edən günahkar olar.

Əksinə, o, kişilərlə eyni hüquqlara malikdir. Yalnız qadınlara və ya kişilərə xass və uyğun olan hüquq və hökmlər istisna ki, bunlar da təfsilatlı şəkildə açıqlanmışdır.

Dinim mənə qardaş, bacı, əmi, bibi, dayı, xala və bütün qohumlarımı sevməyi, həyat yoldaşımın, övladlarımın və qonşularımın haqqlarını yerinə yetirməyi əmr edir.

Dinim mənə elm öyrənməyi əmr edir və həmçinin ağlımı, əxlaqımı və təfəkkürümü artıran şeyləri də etməyə təşviq edir.

Mənə həyanı, həlimliyi, alicənablığı, şücaətli olmağı, müdrikliyi, vüqarlığı, səbri, əmanəti qorumağı, təvazökarlığı, iffəti, şəxsiyyət sahibi olmağı,sədaqəti, insanlara xeyir istəməyi, ruzi qazanmaq üçün çalışmağı, yoxsullarla mehriban olmağı, xəstələri ziyarət etməyi, vədləri yerinə yetirməyi, xoş söz söyləməyi, insanları gülər üzlə qarşılamağı və bacardığım qədər onları sevindirməyə həris olmağı əmr edir.

Bunun qarşılığında isə məni cəhalətdən çəkindirir, mənə küfrü, dinsizliyi, itaətsizliyi, əxlaqsızlığı, zinanı, azğınlığı, lovğalığı, həsəd və kini, pis düşünməni, bədbinliyi, kədəri, yalanı, ümidsizliyi, xəsisliyi, tənbəlliyi, qorxaqlığı, işsizliyi, qəzəbi,yüngüllüyü, axmaqlığı, insanlara pislik etməyi, faydasız çox danışmağı, sirrləri açıb yaymağı, xəyanət etməyi, vədə xilaf çıxmağı, ata-anaya itaətsizlik etməyi, qohumluq əlaqələrini kəsməyi, övladlara etinasız yanaşmağı, qonşuya və ümumən insanlara əziyyət verməyi qadağan edir.

Həmçinin İslam mənə sərxoşedici içki içməyi, narkotik maddə qəbul etməyi, pulla qumar oynamağı, oğurluğu, insanları aldatmağı, hiyləgərliyi, qorxutmağı, cəsusluq etməyi və onların eyiblərini axtarmağı qadağan edir.

Dinim İslam malı-mülkü qoruyur və bunda sülh və əmin-amanlığın yayılması vardır. Məhz buna görə də əmənati qorumağı təşviq edir, onun əhlini tərifləyir, onlara axirətdə gözəl həyat və cənnətə daxil olmağı vəd edir, oğurluğu qadağan edir, bunu edəni dünya və axirətdə əzabla hədələyir.

Dinim insan həyatını qoruyur. Buna görə insanı haqsız yerə öldürməyi və başqalarına sözlə də olsa belə, hər hansı bir şəkildə təcavüz etməyi qadağan edir.

Hətta insanın öz canına təcavüz etməsini belə qadağan etmişdir. İnsana ağlını korlamasına, sağlamlığını məhv etməsinə və ya özünü öldürməsinə icazə verməmişdir.

Dinim İslam azadlıqları təmin edir və tənzimləyir. İslamda insan özünə və ya başqalarına zərər vuran haram işləri etmədikcə düşüncəsində, alqı-satqısında, ticarətində və hərəkətlərində, həmçinin yemək, içki, geyim, dinləmək kimi həyatın gözəl şeylərindən həzz almaqda azaddır.

Mənim dinim azadlıqları tənzimləyir. Heç kəsin başqasına qarşı həddi aşmasına və malını, xoşbəxtliyini və insanlığını məhv edən haram ləzzətlərə qapılmasına icazə vermir.

Özlərinə hər şeydə azadlıq verən,din və ağılın hədlərini aşaraq bütün istəklərini edən kəslərə baxsanız, onların bədbəxtlik və sıxıntı içində

yaşadıqlarını və bəzilərinin sıxıntıdan xilas olmaq üçün intihar etmək istədiklərini belə görəcəksən.

Dinim mənə yeməkdə, içməkdə, yatmaqda və insanlarla danışıqda ən üstün ədəbləri öyrədir.

Dinim mənə alqı-satqıda, haqlarımı tələb etməkdə yumşaq davranmağı öyrədir. Həmçinin mənə dinimdə müxalif olanlara qarşı yumşaq olmağı öyrədir. Mən onlara zülm və pislik etmirəm, əksinə onlara yaxşılıq edirəm və yaxşılığın onlara çatmasını arzu edirəm.

Müsəlmanların tarixi şahidlik edir ki, onlar dinlərində müxalif olanlarla elə bir yumşaq şəkildə davranıblar ki, onlardan əvvəl heç bir xalq belə bir yumşaqlıq görməmişdi. Müsəlmanlar artıq müxtəlif dinlərə mənsub xalqlarla bir yerdə yaşamış və onlar da müsəlmanların hakimiyyəti altına girmişdilər. Müsəlmanlar hər bir kəsə insanlar arasında ola biləcək ən gözəl şəkildə rəftar etmişdilər.

Bir sözlə, İslam mənə həyatımı saflaşdıran, sevincimi tamamlayan ədəbin incəliklərini, gözəl rəftarı və əxlaqı öyrətdi. Həyatımı korlayan, ictimai quruluşuma, canıma, ağlıma, malıma, şərəfimə və ləyaqətimə zərər verən hər şeyi mənə qadağan etdi.

Bu təlimlərə riayət etdikcə xoşbəxtliyim də artır. Səhlənkarlığım və nöqsanlarıma görə, o təlimləri tərk etdiyim miqdarda xoşbəxtliyim də azalır.

Yuxarıda deyilənlər o demək deyil ki, mən məsumam(günahsızam), xəta və ya səhv etmirəm. Dinim təbiətimi və zaman -zaman zəifliyimi nəzərə alır, ona görə də məndə xətalar, nöqsanlar və səhlənkarlıqlar  baş verir. Buna görə də o mənə tövbə etmək, bağışlanma diləmək və Allaha qayıtmaq üçün qapı açdı. Və tövbə etməyim nöqsanlarımın təsirini silir və Rəbbim hüzurunda məqamımı yüksəldir.

İslam dininin əqidə, əxlaq, ədəb və davranışla bağlı bütün təlimlərinin mənbəyi Qurani-Kərim və pak Sünnədir.

Son olaraq qəti şəkildə deyirəm: Dünyanın istənilən bir yerində hər hansı bir şəxs İslam dininin həqiqətinə ədalətli və qərəzsiz bir gözlə baxsaydı, onu qəbul etməkdən başqa yolu olmazdı. Ancaq bəla budur ki, İslam dini yalan təbliğat və ya özünü İslama nisbət edib, lakin ona əməl etməyən bəzi kəslərin hərəkətləri ilə təhrif edilir.

Əgər hər hansı bir kəs onun mahiyyətinə olduğu kimi və ya bu dini həqiqi şəkildə yaşayan  insanların hallarına baxsaydı, onu qəbul etməkdə

tərəddüt etməzdi. Və ona aydın olardı ki, İslam insanları sevindirməyə, sülh və əmin-amanlıq yaratmağa, ədalət və xeyirxahlığı yaymağa çağırır.

İslam dininə nisbət olunan bəzi kəslərin - istər az, istərsə də çox olsun - azğınlıqlarına gəldikdə isə, heç bir halda bunları dinə aid etmək və ya dini bu şeylərə görə ayıblamaq icazəli deyildir. Əksinə İslam dini bunlardan uzaqdır. Azğınlığın məsuliyyəti (doğru yoldan) azanların özlərinə qayıdır. Çünki İslam onlara bunu əmr etməmişdir. Əksinə, onlara öyrətdiklərindən kənara çıxmağı qadağan edib çəkindirmişdir.

Sonra ədalət tələb edir ki, dinə haqqı ilə riayət edənlərin, onun əmr və hökmlərini özlərində və başqalarında həyata keçirənlərin halına da nəzər yetirilsin . Bu isə həqiqətən də qəlbləri bu dinə və onun əhlinə qarşı hörmət və ehtiramla doldurur. İslam hidayət və tərbiyədə kiçik və ya böyük olsun, heç nəyi buraxmadan hamısına təşviq etmiş, fəsad və rəzillik olan hər şeydən çəkindirmiş, ona gedən bütün yolları bağlamışdır.

Buna görə də İslamı uca tutan və onun ayinlərinə əməl edənlər ən xoşbəxt insanlar, nəfsi tərbiyənin ən yüksək pilləsində olan, gözəl xasiyyət və yüksək əxlaq sahibi olan kəslərdir. Buna yaxın və uzaq, həmfikir və müxalif olanlar da şahidlik edirlər.

Yalnız İslam dininə riayət etməyən və doğru yoldan azmış müsəlmanların halına nəzər yetirmək ədalətdən deyildir. Əksinə, ədalətsizliyin özüdür.

Son olaraq bu, müsəlman olmayan hər bir kəsi İslamı öyrənməyə və ona daxil olmağa tələsməyə çağıran bir dəvətdir.

İslama daxil olmaq istəyən kəsə - Allahdan başqa ibadətə layiq haqq ilah olmadığına və Muhamməddin Allahın Rəsulu olduğuna- şəhadət vermək kifayətdir. O, Allahın ona vacib etdiyi şeyləri yerinə yetirmək üçün lazımi qədər dini öyrənməlidir. Hər dəfə onun elmi və əməli artdıqca, xoşbəxtliyi bir o qədər artar, Rəbbi yanında məqamı da bir o qədər yüksələr.

**الفهرس**

Mən müsəlmanam 3